**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MODERNLƏŞMƏ PROSESİNDƏ TARİXİ YADDAŞLA SOSİAL-MƏDƏNİ TRANSFORMASİYALARIN QARŞILIQLI ƏLAQƏSİ

İxtisas: 7207.01 – Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Yeganə Məhəmməd qızı Rəsulova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir dünyanın fəlsəfi cərəyanları" (indiki - "Müasir fəlsəfi problemlər") şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru.
**Füzuli Məhəmməd oğlu Qurbanov**

Rəsmi opponentlər: fəlsəfə elmləri doktoru, professor
**Azər Xoşbəxt oğlu Mustafayev**

fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Rəna Oktaedr qızı Məmmədova**

fəlsəfə üzrə fəlsəfə doktoru
**Leyla Nazir qızı Nəzirzadə**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: fəlsəfə elmləri doktoru, professor
______________ **İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
______________ **Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: fəlsəfə elmləri doktoru, dosent
______________ **Afaq Baloğlan qızı Rüstəmova**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat işinin aktuallığı.** XXI əsr insan cəmiyyətinin bütün sahələrində sürətli dəyişikliklərin özünü göstərməsi ilə fərqlənir. Sosial, mədəni, kommunikativ, informasiya, iqtisadi, siyasi, geosiyasi, ekoloji, təhlükəsizlik, mənəvi-əxlaqi dəyərlər və digər sferalarda köklü yeniləşmələr müşahidə edilir. Bu proses fərdi və kollektiv həyatın bütün aspektlərində əvvəllər görünməyən dinamikanın əmələ gəlməsinə təkan verir. O cümlədən, toplumun özünün sosial-mədəni sahəsinin təkamülü yeni xarakteristikalar alır. Həmin bağlılıqda bütövlükdə cəmiyyətin var olması və yeniləşməsinin qanunauyğunluqlarına fəlsəfi-elmi baxışlar dəyişir.

Vurğulanan aspektlərdə aktuallıq kəsb edən problemlər sırasında cəmiyyətin bütövlüyünü saxlamaq şərti ilə davamlı inkişaf xəttinin müəyyənləşməsi ayrıca yer tutur. Çünki meydana çıxan yeni sosial-mədəni özəlliklər fərdi və kollektiv reallıqlarda hiss ediləcək fərqliliklər yaradır. Onların fəlsəfi-sosioloji və elmi analizi son dərəcə əhəmiyyətli vəzifəyə çevrilir.

Burada bizim tədqiqat üçün ciddi əhəmiyyəti olan bir məqamı vurğulayaq. Həmin məqam yuxarıda ifadə edilən aktuallıq çərçivəsində konkret olaraq tarixi yaddaş problematikasına sosial fəlsəfi yanaşmanın özəlliyi ilə bağlıdır. Tədqiqatçılar sosial-fəlsəfədə iki yanaşmadan bəhs edirlər. Onlardan biri insan varlığının ali dəyərlərinə uyğun olan ləyaqətli yaşamaq normaları əsasında ictimai quruluş formalarını analiz etməyi nəzərdə tutur. Digəri isə subyektin dəyər seçimindən asılı olmadan cəmiyyətin özünəməxsus varlıq məntiqində mövcud olmasını tədqiq edir. Bizim tədqiqat mövzumuz daha çox birinci yanaşma çərçivəsində aspektində təhlil olunur. Bununla yanaşı, metodoloji aspektdə reflektiv yuanaşmaya aid fəlsəfi çalarlar da mövcuddur (cəmiyyət qlobal dünya sisteminin altsistemi kimi təsəvvür edilir). Konkretləşdirsək, deyə bilərik ki, dissertasiya işində özünütəşkil edən cəmiyyətin bütövlüyünü saxlamaq şərti ilə tarixi yaddaşın sosial-mədəni dəyər keyfiyyətində mədəniyyətin müxtəlif növləri daxilində yeri və rolunun sosial-fəlsəfi analizi aparılır. Bu da avtomatik olaraq tarixi yaddaşa fərdi səviyyədə deyil, kollektiv

reallıq səviyyəsində sosial, mədəni, psixoloji və tarixi fenomen kimi baxmağı tələb edir.

Məsələ müstəqilliyini əldə etmiş ölkələrdə daha çox aktual məqamlara malikdir. Çünki həmin ölkələrin cəmiyyətləri tarixi təkamüldə mühüm bir mərhələyə qədəm qoyurlar. Onun iki səviyyəsi vardır. Birincisi, uzun müddət yad idarəetmə və sosial-mədəni dəyərlərin dominantlığı şəraitində mövcud olan cəmiyyətlərin müstəqil ola bilmək modeli hazırlanmalıdır. İkincisi, həmin cəmiyyətlərin özlərinin daxili transformasilayarı müasir tələblərə uyğun olaraq həyata keçirilməlidir.

Tarixən məlumdur ki, istənilən etnosun (həm də cəmiyyətin) mövcud olmasının müəyyən sosial-mədəni, mənəvi-əxlaqi şərtləri vardır. Onlar cəmiyyətin konkret tarixi təcrübəsində formalaşır, cilalanır və müəyyən transformasiyalara uğrayır. Elmi araşdırmalar göstərir ki, müxtəlif xarakterli faktorlar bu prosesdə iştirak edirlər. Yaddaş fərdi və kollektiv səviyyədə bu prosesin mərkəzində dayanan faktorlardandır. Çünki məhz yaddaş canlı orqanizmin (bizim baxdığımız halda həm fərdin, həm də fərdlər toplusunun) zaman aspektində keçmişi, indisi və gələcəyi arasında orqanik əlaqə yaradan əsas fenomendir.

Bundan başqa, yaddaş hansısa seçim qaydası əsasında əmələ gəlir. Kollektiv səviyyədə yaddaş daha mürəkkəb mexanizmlərlə xarakterizə olunur. Alimlər kollektiv yaddaşı mentallıq, milli xüsusiyyətlər, milli ideya, milli psixologiya, əxlaq, mənəvi və sosial-mədəni dəyərlər kimi faktorlarla əlaqələndirirlər. Bu səbəbdəndir ki, F.Yeytsin[1] (ardınca P.Hatton "tarix yaddaş məharətidir" fikrini irəli sürür[2]. Belə çıxır ki, yaddaş insan cəmiyyətinin kollektiv səviyyədə mövcudluğunun vacib amillərindən biri rolunu oynayır. Həm də kollektiv səviyyədə yaddaşın cəmiyyətdəki rolu məzmun aspektində dəyişməz deyil. Mədəniyyət növü dəyişdikcə, ona uyğun olaraq tarixi yaddaşın sosial-mədəni funksiyası da yeniləşir. Mövzunu aktual edən

[1] Ф.Йейтс Искусство памяти. // – Санкт-Петербург: Фонд поддержки науки и образования. "Университетская книга", – 1997. – 238 с.

[2] П.Х.Хаттон. История как искусство памяти. // – Санкт-Петербург: СПб: Издательство «Владимир Даль», – 2004. – 424 с.

ciddi amillərdən biri də məhz bu məqamla əlaqəlidir. Bu barədə hələ 200 il əvvəl ingilis tədqiqatçı Frensis Yeyts çox maraqlı tezislər irəli sürüb[1]. Onun fikrincə, yaddaşı yalnız hadisələri yadda saxlamaq və möhkəmləndirmək aspektində öyrənmək tam mənzərəni vermir. *"İnsan qabiliyyətinin daha fundamental və çətin tutulan keyfiyyətlərindən olan bu problemin inkişaf tarixi bizi daha dərinliklərə baş vurmağa məcbur edir"*[2]. Bu tezisi əsas götürərək F.Yeyts Avropada yaddaşın fəlsəfi aspektdə öyrənilməsi tarixini araşdırmaqla elmi aktuallıq kəsb edən nəticələr əldə edib.

Baxılan kontekstdə yaddaş probleminin tarixiliyi avtomatik olaraq belə bir sualı aktual edir: müasir elektron mədəniyyət mərhələsində tarixi yaddaşın sosial-mədəni funksiyası hansı yeni məzmun çalarları kəsb edib? O cümlədən, total transformasiyalar mərhələsi olan modernləşmədə tarixi yaddaşın rolu və funksiyası özünü necə göstərir? Azərbaycan cəmiyyətində müşahidə edilən sosial-mədəni dəyişmələri fəlsəfi dərk etməklə birbaşa əlaqəsinin olduğuna əminik. Burada aktuallıq kontekstində bir məqamı vurğulamaq gərəkdir. Heydər Əliyevin 1970-2003-cü illərdəki müxtəlif tədbirlərdə (məsələn, 1975-ci ildə Azərbaycanda sovet ədəbiyyatı günləri münasibəti ilə söylədiyi nitqi və 1981-ci ildə Azərbaycan yazıçılarının VII qurultayındakı nitqi) irəli sürdüyü fikirlərdə bu kimi məsələləri ustalıqla ümumiləşdirməsi, tarix qarşısındakı məsuliyyəti vurğulaması bizi maraqlandıran problem baxımından olduqca böyük əhəmiyyət daşıyan məqamlardır. 1975-ci ildəki çıxışında ulu öndər vurğulamışdı: *"Tarix tələbkar imtahançıdır. Hökmdarlar, saray əyanları, zülümkarlar unudulub getmişlər. Azərbaycanın böyük mütəfəkkir və humanist şairləri... xalqın azadlığı və səadəti haqqında öz dərin fikirlərini və sönməz arzularını əsrlərdən, nadanlıq, dini fanatizm, milli əsarət və ictimai ədalətsizlik zülmətindən keçirərək nəsillərə bəxş etmişlər"*. Heydər Əliyev bu fikirlərdə xalqın tarixi yaddaşının ciddi seçim əsasında formalaşdığını və yalnız onu yaşadan məqamları tarixin süzgəcindən keçirərək əsrlərdən-əsrlərə

---

[1] Ф.Йейтс. Искусство памяти. // – Санкт-Петербург: Фонд поддержки науки и образования, "Университетская книга", – 1997. – 238 с.
[2] Yenə orada, – s. 6

daşıdığını lakonik ifadə edir. Yuxarıdakı fikirlərdən aydın olur ki, H.Əliyev yaddaşa şüur hadisəsi kimi qiymət verir. Ulu öndər bu prosesdə önəm kəsb edən mənəvi-əxlaqi və sosial faktorları da konkret göstərib. Dünya Azərbaycanlılarının I Qurultayındakı nitqi zamanı Heydər Əliyev vurğulamışdı: *"Bizim hamımızı, azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir - ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, şerlərimiz, mahnılarımız, xalqımıza mənsub olan adət-ənənələrdir"*[1]. Deməli, milli-mənəvi dəyərlər, mədəniyyət, adət-ənənələr və tarixi köklər (tarixi aspektdə etnosun keçdiyi sosial-mədəni yol) cəmiyyəti yaşadan əsas faktorlardır.

Şübhə yoxdur ki, Heydər Əliyevin tarixi yaddaşla bağlı ifadə etdiyi fikirlər Azərbaycanın müasir tarixi baxımından son dərəcə aktual məqamları özündə ehtiva edir. Mövzunun aktuallığı aspektində vacib məqam hazırda prezident İlham Əliyevin ölkənin daxili potensialı hesabına bütün sahələrdə yeniləşmələri, modernləşməni həyata keçirməsi ilə bağlıdır. Bu mərhələ avtomatik olaraq mənəvi-mədəni dəyərlərin transformasiyası faktorunu ciddi surətdə aktuallaşdırır. Akademik Ramiz Mehdiyev bu məqamı əsərlərində ayrıca göstərib[2].

Fəlsəfi və elmi xarakterli vəzifələr sırasında modernləşmə prosesində mənəvi-mədəni dəyərlərin transformasiyası ilə cəmiyyətin bütövlüyünü saxlamaq şərti ilə islahatlar arasında əlaqələrin tədqiqi ciddi əhəmiyyət və aktuallıq kəsb edir. Müasir elektron mədəniyyət şəraitində və qloballaşmanın sürətlənməsi fonunda tarixi yaddaşın burada oynadığı rolun və tutduğu yerin analizi son dərəcə önəm daşıyır. Heydər Əliyevin kollektiv yaddaşın xalqın və cəmiyyətin tarixi təkamülü, dövlətçilik şüurunun inkişafı ilə bağlı ifadə etdiyi fikirlər və prezident İlham Əliyevin həyata keçirdiyi sistemli modernləşmə

---

[1] Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi // "Azərbaycan" qəzeti, 11 noyabr 2001-ci il.

[2] R. Mehdiyev. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // – Bakı: Azərbaycan, – 2009, – 8 dekabr, № 272, – s.2-3; R. Mehdiyev. İctimai və humanitar elmlər: zaman kontekstində baxış // – Bakı: – 2010; R. Mehdiyev. Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: Varislik və innovasiyalılıq R. Mehdiyev – Xalq qəzeti, – 2008, – 30 dekabr, № – 292,– s.4-8.

prosesi kontekstində bu problemin fəlsəfi-elmi aktuallığının bütün çalarları aydın görünür. Çünki, bir tərəfdən, ulu öndərin daim vurğuladığı kimi, Azərbaycan üçün tarixi yaddaşın çox güclü rol oynadığı bir cəmiyyətin varlığı və müstəqil dövlətçiliyin gələcəyi indi də həmin məsələdən xeyli dərəcədə asılıdır. Digər tərəfdən isə prezident İlham Əliyev demokratik güclü dövlət və vətəndaş cəmiyyəti quruculuğunu XXI əsrin çağırışları fonunda sistemli və düşünülmüş konsepsiya əsasında həyata keçirməkdədir. Bu cür sürətli və geniş əhatəli transformasiyalar mərhələsində tarixi yaddaşın cəmiyyətdəki funksiyasının ulu öndərin irəli sürdüyü fikirlər işığında fəlsəfi-elmi müəyyənləşməsi fövqəladə aktualdır.

Dissertasiyada aparılan tədqiqat və alınan nəticələr bu qənaəti tam təsdiq etməkdədir.

**Tədqiqat mövzusunun işlənmə dərəcəsi.** Yaddaş fenomeninin öyrənilməsinin maraqlı tarixçəsi vardır. Qədim dövrdə yaddaş əsas olaraq fərdi xüsusiyyət kimi sosial-mədəni aspektdən kənar araşdırılırb. Sonrakı dönəmlərdə isə yaddaş fenomeni bu və ya digər dərəcədə sosial-mədəni kontekstdə malik olub. Bu prosesin mərhələli təkamülü maraqlı dinamikanı ortaya qoyur.

Öncə yaddaşın özünün texniki üsullarla möhkəmləndirilməsi ilə bağlı müəyyən psixi və sosial texnologiyaların inkişafı ilə fərdi və kollektiv yaddaşın elmi dərki arasında fərqi anlamaq gərəkdir. Birinci aspektin tarixi çox qədimlərə gedir. Avropalı alimlərin rəyinə görə, qədim yunanlar fərdi yaddaşın möhkəmləndirilməsinə bir sənət, peşə kimi yanaşır və onu "mnemotexnika" adlandırırdılar[1]. Bunun ilk nümunəsi kimi şair Simonidi göstərirlər. Lakin tədqiqatlar göstərir ki, yaddaş fenomeni qədim Hind, Çin və Misir mədəniyyətində də özünəməxsus yer tutub. Ancaq onların heç birində bu faktorun fəlsəfi dərki məsələsi qoyulmayıb. Yaddaş həyatın bir elementi kimi mətnlərdə yer alıb. Qədim yunanlar isə, Simonid də daxil olmaqla fərdi yaddaşla manipulyasiya etməklə, məharət və ustalıq nümayiş etdiriblər. Bu proses tədricən sosial həyatda müəyyən yer tutmağa xidmət edib. Bütövlükdə isə alimlər qədim dövrdə poetik fəaliyyəti

---

[1] Ф. Йейтс. Искусство памяти. // – Санкт-Петербург: Фонд поддержки науки и образования. "Университетская книга",– 1997, – 238 с.

kollektiv yaddaş hadisəsi kimi araşdırıblar. Bu, C.B.Vikonun yaradıcılığında özünü daha çox göstərib[1].

Orta Əsrlərdə Avropada yaddaşın möhkəmlənməsi xüsusi aspektdə inkişaf etdirilib. Həmin dövrdə F.Akvinskinin yaddaşla bağlı ideyaları maraq doğurur. Orta Əsrlərdə Avropada yaddaş sadəcə mnemotexnika çərçivəsində dərk edilmir – o, daha geniş kontekstdə maraq obyektidir (yaddaş əxlaqi və dini borc kimi təqdim edilirdi). Konkret olaraq yaddaşa dini-mifik məzmun verilir və bu bağlılıqda onun sosial funksiyası ikiləşmiş kimi görünür. Bura İntibahı da əlavə etmək olar, C.Kamillo ("yaddaş teatrı"), C.Bruno ("yaddaş sistemi") və R.Fladd ("teatrlar sistemi") həmin istiqamətdə xüsusi yer tutublar. Raymond Lullinin (XIII-XIV əsrlər) yaratdığı bilik-yaddaş sistemi isə bütövlükdə İntibah və Yeni Dövr üçün ciddi təsirə malik olub. Onun "Yaddaş ağacı" adlanan nəzəri modeli bütün Qərb fəlsəfi-elmi təfəkküründə böyük rol oynayıb[2].

Lakin Avropada ancaq Yeni Dövrdən (əsasən XVIII əsrin sonları XIX əsrin başlanğıcından) başlayaraq yaddaş fenomeninin fərdi və kollektiv səviyyələri çərçivəsində elmi dərki sistemli hal alıb. Bu daha çox Böyük Britaniya və Fransanın fəlsəfi-tarixi və elmi mühitində müşahidə edilib. Lakin maraqlıdır ki, F.Yeytsin yazdığına görə hətta XX əsrin 60-cı illərinə qədər həmin mövzuda ingilis dilində elmi ədəbiyyat yox dərəcəsində, fransız, italyan və alman dillərində isə az sayda olub[3]. Buna baxmayaraq, məhz Avropa ölkələrində yaddaşın kollektiv, sosial, tarixi rakurslarda ciddi fəlsəfi, tarixi və elmi tədqiqatı mövcuddur. Qərb mədəniyyət tarixinin tərkib hissəsi olan avtobioqrafiya, psixoanaliz və kommemorasiya çərçivəsində yaddaş, onun möhkəmlənməsi və sosial-mədəni funksiyaları öyrənilib. Bura

---

[1] Дж.Вико. Основания Новой науки об общей природе наций.М. // – Киев: REFL-book; ИСА, – 1994, – 613 с.

[2] Ф.Йейтс. Искусство памяти. // – СПб: Университетская книга, – 1997, – с. 227-240; The Art of Ramon Lull: An Approach to it through Lull's Theory of the Elements/ Journal of the Warburg and Courtauld Institutes, XVII (1964), – p. 115–173; Ramon Lull and John Scotus Erigena / Journal of the Warburg and Courtauld Institutes, XXIII (1960), – p. 1–44.

[3] Ф.Йейтс, Искусство памяти // – Санкт-Петербург: СПб: Университетская книга, – 1997, – с. 8.

müxtəlif xarakterli problemlər daxildir. Məsələn, C.Viko şifahi ənənədə yaddaşın poetikasını[1], ingilis şairi U.Vordsvort avtobioqrafiyada yaddaşın rolunu araşdırıb, Z.Freydi qeyri-şüurinin mnemonikası maraqlandırıb[2], S.Kyerkeqor təkrar və xatırlamanın yaddaş anı kimi fəlsəfi dərkinə çalışıb, H.Q.Qadamer isə yaddaş və hermenevtika problematikasını tədqiq edib[3].

Avropalı tədqiqatçılar Fransa İnqilablarını kollektiv yaddaş, mental özəlliklər, mentalitet, tarixi-mədəni ənənə və müasirlik kontekstində dərindən araşdırıblar. Bundan başqa, kollektiv yaddaşı çox müxtəlif sosial-mədəni kontekstlərdə analiz ediblər. Vurğulanan aspektlərdə E.Hobsbaum, U.Onq, M.Aqyulyon, F.Aries, M.Halbvaks, P.Nora, M.Fuko, P.Hatton, V.Koen, T.R.Huk[4] və digər tanınmış alimləri ayrıca qeyd etmək olar. M.Aqyulyonun siyasi tarixdən mədəniyyət siyasətinə keçiddə obrazların dinamikası aspektində yaddaşa baxışları, M.Halbvaksın kollektiv yaddaşın hərəkətverici

---

[1] Дж.Вико. Основания Новой науки об общей природе наций. М. // – Киев: REFL-book; ИСА, – 1994, – 613 с.

[2] З.Фрейд, Исследования истерии // – Перевод с немецкого С.Панкова. СПб.: ВЕИП, – 2005, – 464 с.

[3] Х.-Г.Гадамер, Истина и метод: Основы филос. герменевтики: // – Пер. с нем./ Общ.ред. и вступ. ст. Б. Н. Бессонова. М.: Прогресс, – 1988, – 704 с.

[4] E.Hobsbawm. Mass-producing traditions: Europe, 1870–1914// Representing the Nation: A Reader. Eds. David Boswell, Jessica Evans. – London, New York: Routledge, – 2007; W. J Ong, Orality and Literacy: The Tecnologizing of the Word. // – London, – 1982, – 214 p.; Barry B. Culture and Equality. An Egalitarian Critique of Multiculturalism. Cambridge, Mass.: Harvard University Press, – 2001. – P. 300; Ariès P. Le Temp de l`Histoire. Monaco, Editions du Rocher, – 1954, –328 p; М Халбвакс, Социальные классы иморфология. М.; СПб, – Алетейя. – 2000, – 509 с.; Франция-память / П. Нора, М. Озуф, Ж. де Пюимеж, М. Винок. -СПб.: Изд-во С.-Петерб. ун-та, – 1999, – 325 с.; М. Фуко Археология знания. Пер. с фр. М. Б. Раковой, А. Ю. Серебрянниковой; вступ. ст. А. С. Колесникова. СПб.: ИЦ «Гуманитарная Академия»,– 2004, – 416 с; P. H. Hatton, History as an Art of memory. University Press of New England/ Hanover and London, – 1993, – 226 p; Cohen W. Symbols of Power: Statues in nineteenth century Provincial France // Comparative Studies in Society and History, – 1989; Hugh Trevor-Roper, 'The Invention of Tradition: The Highland Tradition of Scotland//The Invention of Tradition, eds. Eric Hobsbawm and Terence Ranger. Cambridge: Cambridge University Press, – 1983, – p.15-41.

qüvvələri, M.Fukonun postmodernist təfəkkürdə ənənənin inkarı, P.Noranın "yaddaş yeri" ilə bağlı araşdırmaları hələ də aktuallığını saxlamaqdadır. Biz dissertasiyada daha çox P.Hatton və P.Noranın tarixi yaddaşla bağlı irəli sürdükləri ideyalara əsaslanmışıq.

Rusiyalı tədqiqatçılar yaddaşın psixoloji, sosial, mədəni, informasiya, mentalitet, milli dəyərlər kimi aspektlərdə geniş analiz ediblər. Onlar daha çox "sosial yaddaş" və "kollektiv yaddaş" terminlərini işlədiblər. Anlayışın necə adlandırılmasından asılı olmayaraq, söhbət tarixi yaddaşın müxtəlif sosial-mədəni kontekstlərdə tədqiqindən gedir. Həmin tədqiqatlar sırasında L.Vıqotskiy və A.Luriyanın yanaşmaları daha çox maraq doğurur. Onlara əsaslanaraq bir sıra alimlər tarixi yaddaşla bağlı sanballı əsərlər yazıblar. Bu sırada biz İ.Kon, Lebedeva N.M., Tatarko A.N.Vodolojskaya T.V., Yefremova M.V., Rebrin V.A., Rebane Y.K., Ursul A.D., İlizarov B.S., Kolevatov V.A., Qryaznova E.B., Rojdenstvenskaya E., Semenova V., Vasilyev A.Q.[1] və başqa

---

[1] И.Кон, Идентичность / Социология, Словарь online // http://www.cnru123.com/index.php/term/.xhtml.; Стратегии межкультурного взаимодействия мигрантов и населения России/ Под общ.ред. Н.МЛебедева., М.: Татарко. Российский университет дружбы народов, 2009, 410 с.; Водолажская Т.В. Идентичность гражданская/Энциклопедия культуры и общества//http:// glossword.info/index. php/term/; М. В. Ефремова, Влияние этнической и гражданской идентичности на адаптацию инокультурных мигрантов в Москве и Ставропольском крае/ В кн.: Стратегии межкультурного взаимодействия мигрантов и населения России. Стратегии межкультурного взаимодействия мигрантов и населения России, – 2009, – с.227-250; Ребрин В.А. Метод, проблемы социалистического общественного сознания. Новосибирск, «Наука», 1974, 324 с.; Я.К Ребане., Принцип социальной памяти // Филос. науки. 1977, № 5, с. 37-42.; Урсул А.Д. Информация и культура // Философия и культура. – 2011, № 2, – с. 98-112.; Б.С. Илизаров, Роль ретроспективной соц. информации в формировании обществ, сознания (в свете концепций о соц. памяти) // Вопр. филос. – 1985. – 60-69.; В.А Колеватов,. Социальная память и познание. М., – 1984, –189 с.; Грязнова Е.В. Социальная память как элемент культуры // Человек и культура, 2015, № 5, – с.92-106.; Е.Рождественская, В Семенова, Социальная память как объект социологического изучения // INTER, № 6, – 2011, – с. 27 – 48.; Васильев А.Г. Традиция и культурная память в контексте социальныхинноваций // Человек и культура, 2015, №1, с. 72-91.

müəlliflərin əsərlərini göstərə bilərik. Son illər Rusiyada bu problemə elmi dissertasilayar da həsr edilib (məsələn, Loyko O.T., Mekaeva Y.Y., Solomina İ.Y., Şapovalova N.S.[1] və s.).

Sadalanan tədqiqatlarda kollektiv yaddaş (tarixi yaxud sosial yaddaş) cəmiyyətin ənənə ilə müasirləşmə bağlılığında araşdırılmasını da özündə ehtiva edib. Buradan mədəni-əxlaqi dəyərlərin transformasiya kimi aktual problematikaya da çıxışı mümkündür.

Azərbaycanda vurğulanan istiqamətlər üzrə sosial-fəlsəfi və elmi araşdırmalara rast gəlinmir. Sosial-fəlsəfi aspektdə akademik Ramiz Mehdiyevin [30, 31, 32, 113, 114] AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilovun [13, 14] və fəlsəfə elmləri doktoru İlham Məmmədzadənin [33, 107.] əsərlərində tarixi yaddaş problematikasının müxtəlif aspektləri ənənə ilə müasirliyin qarşılıqlı əlaqəsi kontekstində tədqiq edilir. İlham Məmmədzadə daha çox mədəniyyətlərin qarşılıqlı əlaqəsi, diaoloji şüur və müasirlik aspektlərində tarixi yaddaşa dinamik xarakterə malik fenomen kimi baxır. Bununla yanaşı, folklor, filologiya və tarix üzrə araşdırmalar mövcuddur ki, dolayısı ilə tarixi yaddaşın müxtəlif aspektlərini araşdırmaq üçün bəhrələnmək mümkündür. Onları sadalamağa ehtiyac görmürük, çünki baxılan problem prizmasında siyahı kifayət qədər uzun alınardı. Biz dissertasiyada həmin tədqiqatlardan nəzəri və metodoloji aspektlərdə yararlanmağa çalışmışıq.

**Dissertasiyanın obyekti və predmeti.** Tarixi yaddaşın sosial-mədəni hadisə kimi cəmiyyətin bütövlüyünü saxlamaq məqsədi ilə sosial-mədəni dəyişikliklərə uyğun olaraq öz xüsusiyyətlərini transformasiya etməsi tədqiqat obyektidir.

Tədqiqatın predmetini modernləşmə mərhələsində tarixi yaddaşın cəmiyyətin bütövlüyünü təmin etmək aspektində

---

[1] Лойко О. Т. Онтология социальной памяти: автореф ... д-ра филос. наук: 09.00.01: Красноярск, – 2004, – 41 с.; Ю.Ю. Мекаева, Социальная память как инструмент социального влияния. Автореф… канд. социол. наук. // – Москва: – 22.00.01, – 2011, – 27 с.; И. Ю. Соломина, Социальная память: структура и феномены. Автореферат...канд. философ. наук. // – Самара: 09.00.11, – 2005, – 21 с.; Н.С Шаповалова. Социальная память в закрытых и открытых обществах // – Саратов: Автореферат... канд. философ.наук. – 09.00.11, – 2011, – 20 с.

transformasiyası təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin başlıca məqsədi tarixi yaddaşın mədəniyyətin tarixi növlərinin təkamülü dinamikası çərçivəsində fəlsəfi xüsusiyyətlərini müəyyənləşdirmək əsasında, modernləşmə prosesində sosial-mədəni transformasiyalarda cəmiyyətin bütövlüyünü saxlamaq şərti ilə, yeri və rolunu müəyyənləşdirməkdən ibarətdir. Bu zaman fərdi və kollektiv (sosial) yaddaş arasında qarşılıqlı əlaqələrin ümumi xarakteristikasının, ənənə ilə müasirlyin nisbətinin, multikulturalizm şəraitində toplumun bütövlüyünün təmin edilməsinin analizinə ciddi diqqət yetirilir. Tədqiqatın məqsədi, obyekti, predmeti və problemin özəlliklərinə uyğun olaraq aşağıdakı vəzifələr irəli sürülür:

1. Tarixi yaddaşın strukturu və funksiyasının müəyyənləşməsi.
2. Mədəniyyətin tarixi növləri ilə tarixi yaddaşın sosial-mədəni funksiyalarının dəyişməsi arasında əlaqənin sosial-fəlsəfi xüsusiyyətlərinin aşkarlanması.
3. Şifahi ənənədə tarixi yaddaşın fərqli cəhətlərinin təhlil edilməsi.
4. Yazılı mədəniyyətdə tarixi yaddaşın kəsb etdiyi yeni məzmun çalarlarının analizi.
5. Elektron mədəniyyətdə tarixi yaddaşın aldığı yeni məzmun çalarları və sosial-mədəni rolunun dəyişməsi özəlliklərinin tədqiqi.
6. Modernləşmə mərhələsində tarixi yaddaşın cəmiyyətin bütövlüyünü saxlamaq aspektində kəsb etdiyi aktuallığın tədqiqi.
7. Müasir mərhələdə kommunikasiya texnologiyalarının yeniləşməsi dinamikası ilə tarixi yaddaşın sosial-mədəni funksiyasının dəyişməsi arasındakı əlaqələrin dinamikasının öyrənilməsi.
8. Multikulturalizm şəraitində kollektiv yaddaşın mümkün risklər fonunda yeni özəlliklər kəsb etməsinin analizi.
9. Modernləşmə mərhələsində tarixi yaddaşın tolerantlıq və dialoqda oynadığı rolun fəlsəfi-sosiloji xüsusiyyətlərinin araşdırılması.

**Tədqiqatın elmi yeniliyi.** Tarixi yaddaşın modernləşən cəmiyyətlər kontekstində analizi əsasında aşağıdakı elmi yeniliklər əldə edilib:

- Tarixi yaddaşın mədəniyyətin tarixi növləri ilə qarşılıqlı əlaqəsi sosial-fəlsəfi təhlil edilib;

- Şifahi mədəniyyətdən yazılı mədəniyyətə keçməklə tarixi yaddaşın sosial funksiyasının ikiləşməsi özəllikləri aşkar edilib;

- Yazılı mədəniyyətdən elektron mədəniyyətə keçid sayəsində fərdi və kollektiv yaddaşın kəsb etdiyi yeni məzmun çalarları və sosial-mədəni funksiyaların fərqli cəhətləri müəyyən edilib;

- Modernləşmə prosesində tarixi yaddaşın dəyişmə dinamikasının analizi aparılıb;

- Multikultual sosial-mədəni mühitdə tarixi yaddaşın rolu müxtəlif xarakterli risklər bağlılığında təhlil olunub;

- Modernləşmə mərhələsində tolerantlığın aktuallaşmasında oynaya biləcəyi rol analiz edilib;

- Modernləşmə prosesində dialoqun reallaşmasının vacib şərtlərindən birinin tolerantlıqla yanaşı, tarixi yaddaşın pozitiv aktuallaşmasının olması əsaslandırılıb.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tarixi yaddaş mürəkkəb struktura malik fenomendir. Onun ierarxik və çoxaspektli quruluşu vardır. Ümumi səviyyədə dəyər sosial fəlsəfəsi prizmasında tədqiqat aparılır. Bu zaman reflektiv sosial fəlsəfənin xarakterinə uyğun metodoloji yanaşmalardan istifadə edilir. Konkret olaraq, cəmiyyət mürəkkəb, özünütəşkil edən sistem kimi dünya sisteminin tərkib hissəsi (altsistem) olaraq nəzərdən keçirilir. Problemin hərtərəfli tədqiqi üçün dissertasiyada aşağıdakı metodlardan istifadə edilib: analitik, komparativ, funksional-struktur analiz, sistemli yanaşma, sinergetik yanaşma. Analitik metod tarixi yaddaş haqqında mövcud olan fəlsəfi-elmi konsepsiyalara nəzər salmağa imkan yaradıb. Komparativistika tarixi yaddaş və onun tərkib hissələrinin dəyişməsinə cəmiyyətin mədəni mühitinin inkişaf mərhələlərində analiz edilməsinə imkan verib. Struktur-funksional analiz tarixi yaddaş mexanizminin sosial reallığa təsiri mexanizmlərini aydınlaşdırmağa lazım olub. Sistemli və sinergetik yanaşma isə problemə fənlərarası metodologiya sahəsində yanaşmağa əsas yaradıb. Bu zaman xarici alimlərlə yanaşı, Azərbaycanda f.e.d. İ.Məmmədzadənin [33,107], f.e.d. Ə.Abbasovun tədqiqatları [1,41] və f..e.d. F.Qurbanovun hazırladığı fənlərarası metodologiyadan [24, 25, 26, 27, 28, 29] geniş istifadə edilib.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun nəticələri tarixi yaddaşın müasir cəmiyyətlərdə oynadığı rolu

araşdırmaq üçün səmərəli əsas yaradır. Xüsusilə, modernləşmə mərhələsində olan cəmiyyətlər üçün bunun ayrıca əhəmiyyəti vardır. Demokratikləşmənin və vətəndaş cəmiyyəti quruculuğunun uğurla başa çatdırılması üçün belə nəzəri tədqiqatlara ehtiyac böyükdür. O cümlədən, müstəqil dövlət quruculuğu prosesində uğurlu "yaddaş siyasəti"nin inkişaf etdirilməsi məsələsində dissertasiya işinin qənaətlərindən yararlanmaq mümkündür. Bu kontekstdə tədqiqatın prinsipləri və müddəalarından tədris proqramlarında, kadr hazırlığında, pedaqoji fəaliyyətin təşkilində istifadə etmək olar.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiyanın əsas elmi nəticələri bir neçə beynəlxalq və respublika miqyaslı elmi konfranslarda aprobasiya edilib. Konyada (may, 2016-cı il), Lvovda («Фундаментальные и прикладные исследования: современные научно-практические решения и подходы», adlı beynəlxalq elmi konfransda «Память как элемент культурной традиции» mövzusunda məruzə, 27-28 октября, 2016 г. və mart, 2017-ci il), Konyada (may, 2016-cı il), Bakıda (YUNESRO-nun təsis etdiyi "Ümumdünya fəlsəfə günü"nə həsr olunmuş "Qərb fəlsəfəsini necə dərk edirik?" mövzusunda beynəlxalq elmi-nəzəri konfransda "Tarixi yaddaş anlayışı haqqında" adlı məruzə, 28 noyabr 2012, 2016-cı illər), həmçinin 2015, 2016-cı illərdə keçirilən elmi konfranslarda tarixi yaddaşın müxtəlif aspektlərini əhatə edən məruzələr edilib və onların materiallarında dərc olunub.

Bunlardan başqa, dissertasiyanın əsas müddəaları 7 elmi məqalədə öz əksini tapıb. Məqalələrdən biri xarici jurnalda nəşr edilib. Tədqiqatın nəticələri AMEA Fəlsəfə İnstitutunun "Müasir dünyanın fəlsəfi cərəyanları" şöbəsində müzakirə edilib.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun "Müasir dünyanın fəlsəfi cərəyanları" (indiki - "Müasir fəlsəfi problemlər") şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla tədqiqatın işarə ilə ümumi həcmi**: Dissertasiya işi girişdən (25691 işarə), 3 fəsildən (I fəsil – 85264 işarə; II Fəsil – 51663 işarə, III Fəsil – 92514 işarə), nəticədən (11907 işarə) və

ədəbiyyat siyahısından (27377 işarə) ibarətdir. Dissertasiyanın ümumi həcmi 294376 işarədən, ədəbiyyat siyahısı istisna olunmaqla isə 267039 işarədən ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

Girişdə mövzunun aktuallığı əsaslandırılır və problemin işlənmə dərəcəsi şərh edilir. Tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, elmi yenilikləri və nəzəri-metodoloji əsasları açıqlanır. Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti, işin aprobasiyası və strukturu ifadə edilir.

Dissertasiya işinin I fəsli "**Tarixi yaddaş haqqında fəlsəfi-elmi təsəvvürlər: dəyişmə dinamikası"** adlanır. Bu fəsildə tarixi yaddaş anlayışına (fərdi və kollektiv səviyyələrdə) qədim dövr, orta əsrlər, İntibah, Yeni Dövr və müasir mərhələdə mövcud olan elmi-fəlsəfi təsəvvürlərin təhlilinə diqqət yetirilib. Bu fəslin **"Qədim dövrlərdə tarixi yaddaş haqqında təsəvvürlərin əsas sosial-fəlsəfi məqamları"** adlanan I yarımfəslində qədim mayyaların, hindlilərin, misirlilərin, yunanların yaddaş haqqındakı təsəvvürləri şərh və analiz edilir. Burada göstərilir ki, tədqiqatçıların əksəriyyəti yaddaş fenomeninin ilk olaraq Şərqdə öyrənildiyini vurğulayırlar. Məsələn, rusiyalı alim Y.A.Arnautova yazır ki, *Şərq mədəniyyəti "vizual (təsviri) rəmzlər"in varisidir və bu rəmzlər yaddaşın, o cümlədən sosial yaddaşın daşıyıcısıdır*[1]. Dissertasiyada qədim dövrlərdə yaddaş haqqında təsəvvürlərin təhlili məhz bu metodoloji çərçivədə aparılır.

Həmin prizmada Qədim Misirdə yaddaş haqqında təsəvvürlərin başlıca olaraq şifahi mədəniyyət formasının ciddi təsir etdiyini demək lazımdır. Buna görə də keçmişin mədəni dəyərləri canlı təmaslar, ünsiyyət, usta-şagird münasibətləri formasında öyrənilirdi. Əsas məqsəd isə müdrikliyin bərpasından ibarət idi. Müdriklik bu keyfiyyətdə yaddaşı nəsillərdən-nəsillərə ötürmək mexanizmi kimi çox qiymətli idi. O dövrdə dəyərlərin nəsillərdən-nəsillərə

---

[1] Ю.А.Арнаутова. Культура воспоминания и история памяти // История и память: Историческая культура Европы до начала Нового времени /Под ред. Л.П. Репиной. М.: Кругъ, – 2006, – с. 49-50.

ötürülməsinin xüsusi təhsil-təlim mexanizmi mövcud idi. Tədqiqatçılar vurğulayırlar ki, Qədim Misirdə həmin sistem canlı ünsiyyətə və fərdi hazırlığa əsaslanırdı[1]. Mütəxəssislərin tədqiqatları göstərir ki, misirlilərlə yanaşı qədim mayyaların da Miladdan bir neçə min il öncə Kosmos haqqında maraqlı təsəvvürləri olub[2]. Mayyalar dünya haqqında bildiklərini şifahi yolla nəsillərdən nəsillərə ötürüblər. Onların bilikləri saxlamaq və sonrakı nəsillərə ötürmək mexanizmləri mövcud olub.

Qədim hindlilərin təsəvvürlərində də yaddaş və zaman bir-biri ilə sıx bağlı olub. Bunu "Veda"da Kainat, zaman və yaddaş haqqında biliklərin necə əks edilməsində görə bilərik[3]. Buradan maraqlı fəlsəfi qənaət əldə edə bilərik: qədim sivilizasiyalarda yaddaş Kainat haqqındakı təsəvvürlərin strukturu və funksiyası ilə vəhdət şəklində götürülürdü. Həmin özəlliyi qədim yunanların kollektiv yaddaş barədəki təsəvvürlərində də görmək mümkündür.

Bütövlükdə yunanların yaddaşı saxlamaq məharəti ("mnemonika") ilə yanaşı, onun fəlsəfi dərki istiqamətində də dünya elminə böyük töhfələr verdilər. F.Yeytsin yazdığına görə, şair Simonid Keosskiy yaddaşın möhkəmləndirilməsinə diqqət çəkən ilk yunanlıdır[4]. Tarixin sonrakı mərhələlərində (Orta Əsr, İntibah, Yeni Dövr və müasir mərhələ) yaddaşın fəlsəfi dərki də Aristotel və Platon xətlərinin inkişafı ilə sıx bağlıdır. Platona görə, yaddaş insana həyat təcrübəsindən əvvəl hazır ideyalar şəklində verilir və onun rolu hisslərimizin yaratdığı izləri ideyalara uyğunlaşdırmaqdan ibarətdir. Deməli, yaddaş hissləri əsl reallığa uyğunlaşdırır[5]. Aristotelə görə, təfəkkür obraz tələb etdiyindən yaddaş da mütləq obrazlarla bağlı olmalıdır. Aristotel yaddaşı möhkəmlətmək məharəti (mnemotexnika) ilə düşüncə fəaliyyəti arasında sıx əlaqə görür.

---

[1] Das kulturelle Gedächtnis: Schrift, Erinnerung und politische Identität in frühen Hochkulturen. C.H.Beck, – 2007, –s. 21.

[2] Брейден Г.– 2012: Время великих перемен. М: «Эксмо»,– 2010, –с. 2-10.

[3] Веды // http://scriptures.ru/vedas/

[4] Ф.Йейтс, Искусство памяти. СПб: Университетская книга, – 1997, – с. 13-14

[5] Платон.Теэтет // Пер. Т. В. Васильевой / Собрание соч.: В 4 т., Т. 2. М., – 1993, – с. 191

Yaddaş obrazların nizamlı saxlanması prosesidir. Onda Aristotel fəlsəfəsində yaddaşla təxəyyül bir-birinə sıx bağlı olmalıdır. Yaddaş da fikri obrazların "yığılması" prosesi kimi elə təxəyyülə bənzəyir[1].

I fəslin II yarımfəsli olan **"Orta Əsrlər və İntibah dövründə tarixi yaddaş: sosial-fəlsəfi aspekt"**nda həm Qədim Dövr yaddaş haqqındakı təsəvvürlərin Orta Əsrlər və İntibah mərhələsindəki təsəvvürlərə təsiri, həm də vurğulanan dövrlərdə yaddaş haqqında formalaşan fəlsəfi-elmi təsəvvürlərin özəlliklərinin analizi yer alıb. Aparılan araşdırma göstərib ki, Orta Əsrlərdə yaddaş ikili məzmun kəsb edib. Bu, fəlsəfi aspektdə Aristotel və Platon xəttinin mübarizəsinin nəticəsi kimi görünür. Belə ki, fəlsəfi-elmi dünyagörüşündə yaddaş "mütləq" (İlahi yaddaş) və "nisbi" (elmi yaddaş) kimi iki növə ayrılır. Bu, həm Qərb, həm də Şərq-müsəlman fəlsəfəsində özünü göstərir. Yaddaşın elmi anlamı daha çox Aristotel fəlsəfəsinin təsiri ilə formalaşırdı. Bütövlükdə isə Orta Əsrlər tarixi yaddaş haqqındakı təsəvvürlərə rasionalizm məzmununu Aristotel və Platon fəlsəfəsi verirdi. Deməli, Orta Əsrlər tarixi yaddaşı strukturca ikili və ierarxik xarakterə malik idi. Müsəlman fəlsəfəsində yaddaş haqqında Əl-Kindi[2], Əl-Fərabi[3], İbn Haldun[4], İbn-Sina[5] və başqalarının əsərlərində fikirlər vardır.

Ancaq Orta Əsr Avropa fəlsəfi-elmi düşüncəsinə Raymond Lullinin (XIII əsr) təlimi çox ciddi təsir edib. Hətta demək olar ki, Orta Əsrlə yanaşı İntibah və Yeni Dövr Avropa fəlsəfi-elmi təfəkküründə lullizm mərkəzi yerlərdən birini tutub. Bu barədə F.Yeytsin maraqlı tədqiqatı mövcuddur[6]. R.Lullinin ümumi ideyası bütün həqiqətlərin xristianlıqda cəmləşdiyi ilə bağlı idi. Bu əsasda hesab edirdi ki, fəlsəfə, yaddaş və elmin başlıca vəzifəsi xristianlığın

---

[1] Аристотель. Соч. в 4-х томах. Т.1. М.: "Мысль", –1976, –550 с.
[2] Ibrahim T., Sagadeev A. Classical islamic philosophy. M.: Progress Publishers, –1990, –p.347.
[3] History of islamic philosophy. Ed. by S.H. Nasr and O.Leaman. Tehran, –1999, – p.465.
[4] İbni Haldun. Mukaddimei. İstanbul, Onur yayınları, –1977, –406 s.
[5] Ибн-Сина. Избранные философские произведения. М.: Наука, – 1980, – 554 с.
[6] Ф.Йейтс, Искусство памяти. СПб: Университетская книга, –1997,– 479 с.

həqiqətlərini sübut etməkdən ibarətdir.

Bununla yanaşı, yaddaş aspektində Avropa fəlsəfi təfəkkürünə Platon fəlsəfəsinin təsiri daha da artırdı. Aristotelizm də konkret elm sahələrində güclənirdi. Bunun yekunu olaraq İntibah dövründə artıq yaddaş probleminə daha çox elmi rasionallıq və empirizm mövqeyindən yanaşmağa başladılar. Həmin sırada C.Viko[1], C.Bruno, Q.Qaliley, N.Kopernik[2] və digər alimlərin tədqiqatları diqqəti çəkir. C.Viko qədim dövrdə yaddaşın formalaşmasına şifahi mədəniyyətin (daha çox bədii yaradıcılığın) təsirinin fəlsəfəsini geniş işləyib. Bunlarla yanaşı, İntibah üçün C.Kamillonun "Yaddaş teatrı" anlayışı ciddi təsir göstərdi. "Yaddaş Teatrı" özündə "dünya müdrikliyini" ifadə edirdi. Teatrın yeganə tamaşaçısı səhnənin ortasında dayanır. "...Ancaq ona dünya quruluşunu seyr edən yaradıcının yerində dayanmaq etibar edilmişdi"[3].

F.Yeyts və P.Hatton vurğulayırlar ki, C.Vikonun yaddaşa yanaşması İntibah və Yeni Dövrdə yeni yanaşmaların meydana gəlməsinə təkan verdi. Həmin məsələlərə III yarımfəsil olan **"Yeni Dövrdə tarix və yaddaşın deidentifikasiyasının sosial-fəlsəfi təhlili"ndə geniş yer verilib.** Burada göstərilir ki, Yeni Dövr Avropa fəlsəfi və tarixşünaslıq təfəkküründə C.Vikonun tarixi yaddaşın tədqiqinə olan yanaşmasından fərqli yanaşma özünü göstərməyə başladı. Belə ki, C.Viko insanların kollektiv şüurunun köklərinin poetik ifadələrdə açıldığını yazırdı. Onlar təxəyyül formalarıdır. Buna görə də poetik mentallıq mif və nağıllar kimi qədimdir. Məhz təhtəlşüurun bu kodlarında kollektiv yaddaş saxlanır. Bununla C.Viko iddia edirdi ki, kollektiv poetik təxəyyül vasitəsi ilə kollektiv yaddaşın sirlərinə nüfuz etmək mümkündür. Bu da kollektiv menatllıqla sıx bağlıdır. P.Hatton bununla bağlı vurğulayır: *"Vikonun "Avtobioqrafiya"sı...elə bir həyat tərzinə abidədir ki, orada oxucular əxz etməyə layiq olanları özünütəhlilə baş vurmadan tapa*

[1] Дж Вико..Основания Новой науки об общей природе наций. М.; // – Киев: REFL-book; ИСА, –1994, – 613 с.

[2] П.Х.Хаттон, История как искусство памяти. СПб: Издательство «Владимир Даль», –2004, – 424 с.

[3] Н.Сперенская, Театр памяти Джулио Камилло / İMAGİNAİRE, – 02.19.2012//http://www. imaginaire.ru/node/140.

*bilərdilər"*[1]. Yəni C.Vikonun təlimində tarixi yaddaşın fərdin özünə empatiyası olmadan dərk edilməsi mümkünlüyü irəli sürülü. Yeni Dövr filosofları C.Vikonun əsas tezislərindən çıxış edərək, kollektiv yaddaş və mentallığı öyrənməyin fərqli metodologiyasını inkişaf etdirdilər. Bu sırada ilk olaraq J.J.Russonun adı çəkilir. P.Hatton J.J.Russonun yaddaş haqqında mövqeyini nəzərdə tutaraq yazır ki, "*...onun məqsədi öz qəlbi daxilində uşaqlıq duyğuların axtarmaqdan ibarət idi*"[2]. Fəlsəfi olaraq bunu kollektiv yaddaş və mentaliteti öz həyatının mənasını axtarmaq yolu ilə analiz etmək cəhdi kimi qiymətləndirmək mümkündür. Başqa sözlə, J.J.Russo şəxsi və sosial yaddaşın, fərdi və kollektiv mentallığın yanaşı mövcud olduğu "kəsişmə sahəsi"ni axtarırdı. Yeni Dövr fəlsəfi təfəkküründə tarixi, kollektiv yaddaşa insanın empatiyası, özünüdərk, özünənüfuz vasitəsi ilə yanaşmağın zəruriliyi tezis kimi irəli sürülür. P.Hatton C.Viko və J.J.Russonun yaddaş probleminə yanaşmalarını müqayisə edərək vurğulayır: *"Viko emosional ifadə tərzini qədim xalqların poetik qavrayışı ilə necə bağlayırsa, Russo da eyni qaydada yaddaşa özünün "Mən" hissini formalaşdıran obraz və yaşantıları tapmaq məqsədi ilə müraciət edir"*[3].

XIX əsr ingilis şairi U.Vordsvort J.J.Russonun ideyalarını inkişaf etdirərək fərdi və kollektiv yaddaşlar arasındakı əlaqəni daha qabarıq təsvir edir. O, ömrünün sonuna qədər avtobioqrafik etiraflarını (tövbə) təkmilləşdirib. U.Vordsvort da J.J.Russo kimi fərdi təxəyyülü vəsf edir. Onun məşhur *"hər bir insan – özü haqqında yaddaşdır"* ifadəsi yanaşmasının özəlliyini dəqiq əks etdirir. P.Hatton vurğulayır: *"O (U.Vordsvort – Y.R.), öz "Mən"ini axtarmaqla hər birimizin şəxsi identiklik haqqında təsəvvür formalaşdırdığımızı nəzərdə tutur. Öz təxəyyülünün gücünü inkişaf etdirmək yolu ilə avtobioqrafiya janrını müasir yaddaş təliminə çevirə bildi"*[4].

Beləliklə, U.Vordsvort faktiki olaraq yeni avtobioqrafiya

---

[1] П.Хаттон, История как искусство памяти. СПб, Издательство «Владимир Даль», – 2004, – с. 147
[2] Yenə orada, – с. 147-148
[3] Yenə orada, –с. 148.
[4] Yenə orada, –с. 147.

konsepsiyası işləyib. Aparıcı faktor bu yanaşmada məxsusi təxəyyülün impulslarıdır. Nəticədə U.Vordsvort *"yaddaşın mənası haqqında təfəkkürün yeni yolunu müəyyənləşdirdi ki, Ziqmunt Freyd onu psixoanaliz elminə çevirdi"*[1].

XX əsrdə yuxarıda vurğulanan yanaşmalarla bərabər sırf sosial-fəlsəfi mövqedən yaddaş problemini tədqiq etməklə bağlı yanaşmalar da meydana gəldi. Həmin sırada M.Halbvaks, P.Nora, M.Fuko, F.Yeyts və P.Hattonu ayrıca qeyd etmək olar. M.Halbvaks "daxili və xarici" və ya "şəxsi və sosial" yaddaş, daha dəqiq deyilsə, "avtobioqrafik yaddaş və tarixi yaddaş" anlayışlarını daxil edib[2]. Bu anlayışlar müasir tarixşünaslıq və sosial-fəlsəfi ədəbiyyatda yaddaşla bağlı geniş istifadə edilir. Dissertasiyada P.Nora, M.Fuko, F.Yeyts və P.Hattonun yaddaş haqqındakı mövqeləri həmin anlayışların məzmun və məna çalarları işığında təhlil edilir.

Dissertasiyanın birinci fəslində gəlinən əsas nəticələrin ümumi xülasəsi ondan ibarətdir ki, tarixi yaddaş Qədim dövrlərdən filosofların araşdırdığı mövzulardan biridir. O dövrdə yaddaş haqqında xüsusi təlimlər yaradılmışdı və yaddaşın möhkəmləndirilməsi ilə bağlı "mnemonika" adlı nəzəriyyə mövcud idi. Qədim dövrlərdə yaddaş məsələsi daha çox praktiki aspektdə tədqiq edilsə də, onun fəlsəfi-nəzəri araşdırılması sonrakı tarixi mərhələlərdə tarixi yaddaş haqqında sosial-fəlsəfi yanaşmaların əsasını qoymuşdur. Dissertasiyanın birinci fəslində araşdırılan bu problemlərin hər biri ayrıca məqalələr şəklində də dərc olunmuşdur[3].

---

[1] П.Хаттон, История как искусство памяти. СПб, Издательство «Владимир Даль», – 2004, – с. 159

[2] Морис Хальбвакс. Коллективная и историческая память /ЖЗ// http://magazines.russ.ru/nz/2005/2/ ha2.html

[3] Rəsulova, Y. "Tarixi yaddaş" anlayışı haqqında // – Bakı: YUNESKO-nun təsis etdiyi "Ümumdünya fəlsəfə günü"nə həsr olunmuş "Qərb fəlsəfəsini necə dərk edirik?" mövzusunda beynəlxalq elmi-nəzəri konfransın materialları, – 2012, "Təknur", - s. 188-190; Rəsulova Y.M. Sosial, tarixi və kollektiv yaddaş: müqayisəli təhlil // "Elmi əsərlər". Beynəlxalq elmi-nəzəri jurnal, AMEA Fəlsəfə İnstitutu, Bakı, 2012, № 1(18), s. 75-80; Rəsulova Y.M. Qədim Yunanıstanda yaddaş anlayışının fəlsəfi xüsusiyyətləri / Geostrategiya. İctimai-siyasi, elmi-populyar jurnal, Bakı, 2013, №03(15), s. 63-66.; Rəsulova Y.M. Yaddaş haqqında Orta əsr və İntibah dövrü konsepsiyaları // Məruzələr. Azərbaycan Milli

II fəsil **“Tarixi yaddaş, folklor və mədəniyyətin tarixi növləri: qarşılıqlı əlaqələrin sosial-fəlsəfi analizi”** adlanır. Bu fəsildə tarixi yaddaş haqqındakı təsəvvürlərin təkamülü ilə mədəniyyətin üç növü – şifahi, yazılı və elektron mədəniyyət (M.Maklüen bölgüsü), arasındakı qarşılıqlı əlaqənin sosial-fəlsəfi təhlili aparılıb. Burada problemin konkret olaraq Azərbaycan folklor nümunələrinin tarixi yaddaş faktoru kimi analizinə ayrıca diqqət yetirilib. I yarımfəsil olan **“Mədəniyytin növləri, tarixi yaddaş və folklor: qarşılıqlı əlaqələrin sosial-fəlsəfi aspekti”** mədəniyyətin üç növünün bir-birini əvəzləməsi dinamikası bağlılığında tarixi yaddaşda və onun cəmiyyətdəki rolunda hansı dəyişikliklərin baş verdiyi izlənir. Əsas tezis belədir – mədəniyyətin hər bir tarixi növünə uyğun olan tarixi yaddaş növü mövcuddur! Fəlsəfi kontekstdə bu məsələ mürəkkəb struktura malikdir. Çünki bir tərəfdən fərdi səviyyədə şüurlarda yaddaşın saxlanması mexanizmləri, digər tərəfdən isə tarixi yaddaşın kollektiv şüurda real mövcudluğu arasında mürəkkəb əlaqələr vardır. Eyni zamanda, məhz bu mürəkkəb struktur-funksional özəlliklər vasitəsi ilə tarixi yaddaş konkret mədəniyyət növü ilə qarşılıqlı əlaqədə olur. Şifahi mədəniyyətdə yaddaş əsas olaraq canlı ünsiyyət və xatırlamalar vasitəsi ilə formalaşır və cəmiyyətdə buna uyğun funksiya yerinə yetirir. P.Noranın fikrinə görə, bu tip cəmiyyətlərdə yaddaş bütövlükdə toplumla identiklik təşkil edir. Yazılı mədəniyyətdə “Tarixin sürətlənməsi” (P.Nora) ilə yaddaşla cəmiyyət arasındakı eynilik (identifikasiya) pozulur və yeni situasiya yaranır. Bu situasiyada yaddaş “küncə sıxılmış” olur ki, bu da meydana “yaddaş yeri” (P.Nora) kimi anlayış çıxarır. Nəhayət, müasir elektron mədəniyyətdə yaddaşla bağlı həm şifahi, həm də yazılı mədəniyyətə mövcud olan özəlliklər sintez halında öz ifadəsini tapır. Həmin müstəvidə folklorun tarixi yaddaş aspektində cəmiyyətdəki roluna sosial-fəlsəfi yanaşma daha konkret təsəvvürlər əldə etməyə imkan verir. Burada folklorun bədii-tarixi yaddaş sistemi kimi toplumun

---

Elmlər Akademiyası, Bakı, “Elm”, 2014, s. 55-59.; Rəsulova Y.M. Yeni Dövrdə tarixi yaddaş haqqında fikirlərin əsas xüsusiyyətləri // Xəbərlər, AMEA, İctimai Elmlər seriyası, № 1, 2016, s. 219-226.

sosial-mədəni transformasiya mexanizmi olaraq özəllikləri fəlsəfi təhlil edilib. Azərbaycan folklor nümunələri timsalında ("Oğuz", "Kitabi-Dədə Qorqud", "Koroğlu") həmin problemin bir sıra sosial-fəlsəfi aspektləri açılıb.

II yarımfəsil **"Ritual-mifoloji yaddaş tarixi yaddaşı funksionallaşdıran mexanizm kimi: mədəniyyətin təkamülü kontekstində sosial-fəlsəfi təhlil"** adlanır. Bədii-tarixi yaddaş, ümumiyyətlə, mifik yaddaşla başlanır. Bu mənada, mifik yaddaş həm tarixi yaddaşın özü (özülü), həm də onun ilkin mərhələsidir. Y.M.Meletinski yazır ki, *"mif" yunan sözü olub, hərfən, rəvayət, söyləmə anlamını bildirir. Adətən, tanrılar, ruhlar, ilahiləşdirilmiş, yaxud öz mənşəyi etibarilə tanrılarla əlaqəli olan qəhrəmanlar, ilk zamanda fəaliyyət göstərmiş, dünyanın, onun təbii və mədəni elementlərinin yaradılmasında birbaşa, yaxud dolayısı ilə iştirak etmiş ilk əcdadlar haqqında əhvalatlar nəzərdə tutulur"*[1].

Mif bir hekayət kimi yaddaş hadisəsidir. Lakin o, sakral, sabit, sxematik yaddaşdır; düşüncənin mental formulları ilə bağlıdır, etnik yaddaş potensiyası, enerjisidir. Bu enerji cəmiyyət ona ehtiyac duyanda aktuallaşır və bununla da bizim bu gün qeyri-həqiqi (uydurma) hesab etdiyimiz mif "qeyri-həqiqi" potensiyadan "həqiqi" (gerçək) hadisəyə çevilir. Klod Levi-Stros yazır ki, *mif nə qədər ki, mif kimi qavranılır, o, mif olaraq qalır*[2]. Başqa sözlə, mifik yaddaşın mövcudluğu onun aktuallığı ilə şərtlənir. S.Y.Neklyudov mifik yaddaşın modernləşmə prosesində sosial-mədəni transformasiyalarla əlaqələnməsini izah edərək göstərir: *"Belə hesab etmək düzgün deyildir ki, (daha çox "kütləvi şüuraltı" adlanmalı olan) kütləvi şüur ən yeni dövrdə mifolojiləşir. O, öz təbiəti etibarilə ümumiyyətlə mifolojidir. Biz siyasət və ideologiyada qədim miflərin əsrlərin dərinliklərindən gələn arxaik modellər əsasında yeni sosial və milli cildlərdə yaradılmasının şahidi oluruq..."*[3].

---

[1] Е.М. Мелетинский, Общее понятие мифа и мифологии / Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. // – Москва: «Советская энциклопедия», – 1990, – с.634.

[2] К.Леви-Строс, Структурная антропология. // – Москва: Глав. Ред Вост. Лит., – 1985, – с. 194.

[3] С.Ю.Неклюдов, Структура и функция мифа // http // www.ruthenia.ru

Mifik yaddaşın etnosun bədii-tarixi yaddaşının əsasını təşkil etməsi, ümumiyyətlə, hər bir mifologiyanın milli düşüncəni formalaşdırması ilə əlaqədardır. Cəlal Bəydili yazır ki, *"mifoloji sistem özlüyündə etnik-mədəni ənənənin özülünü, onun tarixi inkişafının başlıca meylini təşkil edir"*[1] [3, s. 19-20].

Beləliklə, dissertasiyanın ikinci fəslində gəlinən əsas nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar. Bu fəsildə folklor nümunələrinin tarixi yaddaşın formalaşmasında və onun sosial mühitdə rolu ilə bağlı aparılan analizlər modernləşmə aspektində maraqlı qənaətlər əldə etməyə imkan verir. Azərbaycan folklorunun sosial-fəlsəfi analizi göstərir ki, folklor kodları tarixi yaddaşın formalaşmasında ciddi rol oynayır. Bu rol hər bir tarixi mərhələdə bütövlükdə mədəniyyət sistemi daxilində özəl məzmun kəsb edir. Həmin tezis müasir mərhələdə tarixi yaddaşın cəmiyyətdəki rolu və yerinin sosial-fəlsəfi dərki üçün folklor nümunələrinin əhəmiyyətli rol oynadığına dəlalət edir. II fəsildə gəlinən qənaətlər iddiaçının bir sıra məqalələrində ifadə olunub[2].

III fəsil **"Modernləşmə şəraitində tarixi yaddaşın transformasiyası: sosial-fəlsəfi yanaşma"** adlanır. Bu fəsildə öncəki fəsillərdə əldə edilən nəticələrin modernləşmə aspektində müasir cəmiyyətdə özünü göstərən sosial-mədəni transformasiyalarda tarixi yaddaşın rolunun təhlilinə baş vurulub. Birinci yarımfəsil **"Cəmiyyətin modernləşməsi: tarixi yaddaş və mədəniyyətin qarşılıqlı əlaqəsi kontekstində"** adlanır. Burada müasir tarixi mərhələdə müstəqilliyini əldə etmiş cəmiyyətlərdə modernləşmə

---

[1] Bəydili C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. // – Bakı: Mütərcim, – 2007, – s. 20.

[2] Расулова Е. Память как элемент культурной традиции / Фундаментальные и прикладные исследования // – Ужгород-Дрогобыч. Сборник материалов I международной научно-практической конференции, //– Баку— 27-28 октября – 2016 года, – с. 167-169.; Rəsulova Y.M. Folklor: tarixi yaddaş və sosial-mədəni transformasiya kontekstində / Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2017, № 2, – s. 362-366.; Расулова Е. Память в контексте межкультурной динамики: междисциплинарный подход/Материалы сборника статей научно-информационного центра «Знание» Международной Научной Конференции «Развитие науки в XXI столетии», // – Харьков, 14.03. – 2020, – с. 103-109.

zamanı sosial-mədəni transformasiyaların tarixi yaddaşla mədəniyyətin qarşılıqlı əlaqəsi kontekstində hansı məzmun kəsb etməsinə nəzər salınıb. Göstərilir ki, modernləşmənin məntiqi və "ruhu" cəmiyyətə uyğun olmadıqda, sosial-mədəni, siyasi, demoqrafik və mənəvi identifikasiya ziddiyyətlərlə üzləşir. Nəticədə bütövlükdə cəmiyyət böhrana düşür. Latın Amerikası ölkələrinin təcrübəsində bu, özünü göstərib. Buradan belə bir qənaət əldə etmək olar ki, modernləşmənin cəmiyyətin özünüidentifikasiyası ilə qarşılıqlı əlaqəsi prinsipial fəlsəfi əhəmiyyət kəsb edir. Onları birləşdirən və eyni inteqrativ müstəviyə gətirən faktorlar sırasında tarixi yaddaşın vacib rol oynadığı əsaslandırılır.

Bu zaman metodoloji olaraq transformasiyalar sahəsində ayrı-ayrı altsferaların ortaq ritmə gəlməsi sayəsində yeni struktur-funksional özəlliyin bütün obyekt miqyasında formalaşması şərtlərinə xüsusi diqqət yetirilib. Həmin özəllik bifurkasiya zonasında sinergetik sintez prinsipi adlanan metodoloji qayda (bu istiqamətdə Azərbaycanda Ə.F.Abbasov[1] və F.M.Qurbanovun[2] da araşdırmaları mövcuddur) çərçivəsində nəzərdən keçirilib.

Bütün bunlardan belə nəticə çıxarmaq olur ki, müasir cəmiyyətlərdə modernləşmə prosesində sosial-mədəni transformasiyaların cəmiyyətin bütövlüyünü saxlamaq şərti ilə sistemli inkişafa aparması şərtlərindən biri tarixi yaddaşla mədəniyyət növü arasında qarşılıqlı əlaqələrin dərin fəlsəfi dərki olmalı, uyğun nəzəri-metodoloji prinsiplər müəyyənləşməlidir. III fəslin 2-ci və 3-cü altfəsillərində məhz bununla bağlı müddəalar irəli sürülüb və nəticələr alınıb.

Bu fəslin II yarımfəsli "**Müasir mərhələdə modernləşmə: multikultural cəmiyyətdə tarixi yaddaşın inteqrativ funksiyası və transformasiyası problemi"** adlanır. Yarımfəsildə tarixi yaddaşın

---

[1] Ə. Abbasov, Geosiyasi və sosial fəlsəfə: ədalətli nizam və tərəqqi naminə. // – Bakı: "Zərdabi LTD" MMC, – 2017, – 284 s.; A., Аббасов, С Мехтиев. Трансформационный процесс: гражданское общество и проблемы демократизации // Vətəndaş cəmiyyətinə doğru nəzəriyyə və reallıqlar. // – Bakı: – Adiloğlu, – 2001, – s. 42-49.

[2] F.M.Qurbanov, Modernləşmə fəlsəfəsi və Azərbaycan / Müasir fəlsəfə və Azərbaycan: // – Bakı: tarix, nəzəriyyə, tədris. "Elm", – 2011, – s. 221-225.

müasir mədəniyyət növü (elektron mədəniyyət) ilə qarşılıqlı əlaqəsi cəmiyyətin bütövlüyünü təmin etmək prosesi bağlılığında təhlil edilir. Bu zaman tarixi yaddaşın hansı şərtlər daxilində dayanıqlı inteqrativ funskiya yerinə yetirə bilməsi imkanları nəzərdən keçirlir. Vurğulanır ki, tarixi aspektlə müasirliyin kəsişməsində modernləşmənin yeni özəllikləri və onların mənəvi-əxlaqi, sosial-mədəni dəyərlərin (bizim tədqiqat marağımız çərçivəsində tarixi yaddaşın) transformasiyası ilə əlaqəsi üzərində dayanmaq fəlsəfi-elmi aktuallıq kəsb etməkdədir. Burada diqqət yetirilməli bağlıca məqamlar Azərbaycan cəmiyyətinin getdikcə sürətlənən dəyişilmələr axınına mənəvi-mədəni adaptasiyasının nəzəri modelinin tapılması və ictimai şüurun müxtəlif sferalarında baş verən keyfiyyət dəyişikliklərini fəlsəfi aspektdə dərk etmək olduğu ayrıca qeyd edilir. Onlar akademik Ramiz Mehdiyevin apardığı maraqlı təhlillər və modernləşmə aspektində əldə etdiyi konseptual əhəmiyyətli qənaətlər işığında araşdırılıb[1].

R.Mehdiyev modernləşməni sistemli proses olaraq təqdim edərək, orada vətəndaşların sürətlə yeniləşən dünyanın tələblərinə uyğun mənəvi-əxlaqi dəyərlərə və davranış tipinə yiyələnməsi zərurətini ayrıca qeyd edir[2]. Bu kontekstdə akademik "mənəvi-əxlaqi dəyərlərin transformasiyası"nın vacibliyini sübut edir[3].

Vurğulanan kontekstdə Azərbaycan filosofu, fəlsəfə elmləri doktoru İlham Məmmədzadənin aşaıdaki fikri maraqlıdır. O yazır: *"...istənilən milli mədəniyyət özünün bütün unikallığı və özəlliyi daxilində uzunmüddətli inkişafın nəticəsidir"[4]. Fikirlərinə davam edərək İ.Məmmədzadə vurğulayır ki, "və ancaq onun hansısa*

---

[1] Р.Мехтиев. Определяя стратегию будущего*:* курс *на* модернизацию // Бакинский рабочий, 2008, 10 января, *№* 4, с. 2-5.; Р.Мехтиев Повестка дня остается неизменной - курс на модернизацию/Лаборатория общественно-политического развития стран ближнего зарубежья. Информационно-аналитический центр, 18.06.2008//http://ia-centr.ru/expert/1456/

[2] Р.Мехтиев Определяя стратегию будущего*:* курс *на* модернизацию // Бакинский рабочий,– 2008, 10 января, *№* 4,- с. 3-4.

[3] Yenə orada,– s. 4.

[4] Мамедзаде И. Философия о современности, истории и культуре (О контурах историко-культурной эпистемологии). Баку: Издательсвто "Elm və təhsil",– 2018,– s. 109

*mərhələsində müxtəlif mədəniyyətlərin, etnosların və dinlərin kəsişməsi olaraq ziddiyyətli proses kimi dərk olunmağa başlanır".*

Bu tezislərin əsasında sonuncu fəsli III yarımfəslində tarixi yaddaşın inetqrativ funskiyanı yerinə yetirməsinin iki mühüm şərtinin fəlsəfi təhlili aparılır. Sonuncu yarımfəsil **"Tolerantlıq və dialoji şüur: modernləşmə mərhələsində tarixi yaddaşın sosial-mədəni transformasiyasının başlıca faktorları kimi"** adlanır. Həmin yarımfəsildə multikultural mühitdə tarixi yaddaşın cəmiyyətin bütövlüyünə xidmət etməsi üçün, sosiumda tolerantlıq və dialoji şüurun dominant olması əsas şərt kimi irəli sürülür. Müasir cəmiyyətlərdə kommunikasiya vasitələrinin sürətli inkişafı fonunda bu problem kifayət qədər mürrəkəblik və aktuallıq kəsb edir. Elektron mədəniyyəti mərhələsində kommunikasiyanın sürətinin artması və məzmununun yeniləşməsi multikultural sistemdə tərkib hissələr arasında əlaqələrə də xüsusi məzmun verir. O cümlədən, temporallıq, emercentlik və spontanlıq müasir sosial-mədəni əlaqələrin əsas əlamətlərinə çevrilirlər. Bununla da cəmiyyətin bir açıq və qeyri-xətti sistem olaraq bütövlüyünün təmini tamamilə fərqli sosial-mədəni şərtlərin ödənməsini tələb edir. Dissertasiyada belə bir tezis irəli sürülüb ki, vurğulanan kpntekstdə tolerantlıq və dialoji şüur aparıcı rol ohnamlıdırlar. Problemin sosial-fəlsəfi analizi göstərir ki, elektron mədənoyyət şəraitində həmin özəlliyin reallaşması sistemli yanaşma tələb etməkdədir. O aspektdə tolerantlıq və dialoq subyektin kənardan tətbiq etdiyi faktorlar deyil, cəmiyyətin təbii-sosial varlığının vacib atributu kimi özünü göstərir.

Qeyd olunan problemin fəlsəfi təhlili V.V.Nalimovun şüurun spontanlığı[1] və M.M.Baxtinin şüurun dialojiliyi[2] tezislərinin işığında həyata keçirilib. Həmin tezislər müasir fəlsəfi-elmi ədəbiyyatda geniş tətbiq edilən sinergetik yanaşma müstəvisində tətbiq olunub. Bu bağlılıqda Azərbaycan filosofu İlham Məmmədzadənin fikri çox maraq doğurur. İ.Məmmədzadə yazır: *"mədəniyyət hər bir halda*

---

[1] Налимов В.В. Разбрасываю мысли. М.: ЦГИ, 2015, 258 с.; Налимов В. В. Спонтанность сознания: Вероятностная теория смыслов и смысловая архитектоника личности. М.: Ozon.ru, – 2011, – 400 с.

[2] Бахтин М.М. Эстетика словесного творчества. М.: Искусство, 1979, 424 с.

*müxtəlif mədəniyyətlərin ünsiyyətidir", lakin "onda insanın öz seçimi ilə bağlı özü ilə dialoqu da mövcuddur"*[1].

Dissertasiyanın III fəslində gəlinən əsas qənaət bundan ibarətdir ki, modernləşmə mərhələsində multikultural mühitdə yalnız tolerantlıq və dialoq faktorlarının aparıcı rol oynadığı halda tarixi yaddaş müasir tələblər səviyyəsində inteqrativ rol oynaya bilər. Bu isə cəmiyyətin sistem olaraq özünə aktiv refleks edə bilən tam təşkil etməsi və fərdlərin daxili dialoq imkanları ilə özgəsi ilə dialoqu uyğunlaşdıra bilməsi qabiliyyəti ilə sıx bağlıdır. Başqa hallarda ya tarixi yaddaş cəmiyyətin konservativ faktorlara bağlanmasına, ya da yerli mühitə uyğun olmayan mücərrəd müasirliyə xidmət edə bilər. ki, bu da toplumun gələcəyi üçün təhlükələr meydana gətirər. Vurğulanan tezislər iddiaçının bir neçə məqaləsində ifadə edilib[2]

Dissertasiya işinin **"Nəticə"** hissəsində bir sıra sosial-fəlsəfi ümumiləşdirmələr aparılıb. Həmin əsasda bir neçə müddəalar irəli sürülüb. Bu müddəalarda tarixi yaddaşın həm sosial-fəlsəfi tədqiqinin başlıca cəhətləri, həm də sonrakı tədqiqatların mümkün istiqamətləri barədə fikirlər ifadə edilib. İrəli sürülən tezislər əsasında cəmiyyətin bütövlüyü kontekstində proqnozlar verilib.

---

[1] İlham Məmmədzadə. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı, "Elm və təhsil", – 2019, – s. 85.

[2] Rəsulova Y.M. Modernləşmə və tarixi yaddaşın transformasiyası: qarşılıqlı əlaqələr kontekstində // Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, Bakı, – 2017, C.65, № 3, –s. 124-132.; Расулова Е. О взаимосвязи индивидуальной и коллективной памяти / Фундаментальные и прикладные исследования. Сборник материалов II международной научно-практической конференции, Баку-Ужгород-Дрогобыч, 10 марта 2017 года, с. 185-188.; Расулова Е. Историческая память и типы культуры: в поисках взаимодействия / Гілея, Науковий вісник збірник наукових праць, Киів, – 2017, Випуск 120 (№ 5), – с. 222-225.; Расулова Е. Память в контексте межкультурной динамики: междисциплинарный подход / Материалы сборника статей научно-информационного центра «Знание» Международной Научной Конференции «Развитие науки в XXI столетии», Харьков, – 2020, 14.03.2020, – с. 103-109.; Rəsulova Y., Qurbanov F. Əliyev irsi: dövlət quruculuğunda tarixi və sosial yaddaşın rolu // Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq. Elmi məqalələr toplusu. Bakı, – 2020, – s. 55-69.

Burada multikulturalizmin, dialoq və tolerantlığın bu prosesdə əhəmiyyətli rol oynadığı vurğulanıb.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapıb:**


1. "Tarixi yaddaş" anlayışı haqqında //– YUNESKO-nun təsis etdiyi "Ümumdünya fəlsəfə günü"nə həsr olunmuş "Qərb fəlsəfəsini necə dərk edirik?" mövzusunda beynəlxalq elmi-nəzəri konfransın materialları. – Bakı, "Təknur", – 2012, – s. 188-190.
2. Sosial, tarixi və kollektiv yaddaş: müqayisəli təhlil // – Bakı: "Elmi əsərlər". Beynəlxalq elmi-nəzəri jurnal, AMEA Fəlsəfə İnstitutu, – 2012, № 1(18) –, s. 75– 80.
3. Qədim Yunanıstanda yaddaş anlayışının fəlsəfi xüsusiyyətləri // – Bakı: Geostrategiya. İctimai-siyasi, elmi-populyar jurnal, – 2013, №03 (15), – s. 63– 66.
4. Yaddaş haqqında Orta əsr və İntibah dövrü konsepsiyaları // – Bakı: Məruzələr. Azərbaycan Milli Elmlər Akademiyası, "Elm", – 2014, – s. 55–59.
5. Память как элемент культурной традиции //– Фундаментальные и прикладные исследования. Сборник материалов I международной научно-практической конференции, – Баку-Ужгород-Дрогобыч, – с. 27-28 октября, –2016 года. –С.167-169.
6. Yeni Dövrdə tarixi yaddaş haqqında fikirlərin əsas xüsusiyyətləri //– Bakı: Xəbərlər, AMEA, İctimai Elmlər seriyası, – 2016, № 1, – s. 219-226.
7. Modernləşmə və tarixi yaddaşın transformasiyası: qarşılıqlı əlaqələr kontekstində // – Bakı: Pedaqoji Universitetin xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2017, C.65, № 3, – s. 124–132.
8. О взаимосвязи индивидуальной и коллективной памяти // – Фундаментальные и прикладные исследования. Сборник материалов II международной научно-практической конференции, – Баку-Ужгород-Дрогобыч, –10 марта. –2017

года, – с. 185-188.

9. Folklor: tarixi yaddaş və sosial-mədəni transformasiya kontekstində //– Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, – 2017, № 2, –s. 362–366.
10. Историческая память и типы культуры: в поисках взаимодействия //– Киів: Гілея, Науковий вісник збірник наукових праць, – 2017, Випуск 120 (№ 5), – с. 222-225.
11. Память в контексте межкультурной динамики: междисциплинарный подход //– Материалы сборника статей научно-информационного центра «Знание» Международной Научной Конференции «Развитие науки в XXI столетии», – Харьков, – 14. марта. – 2020, – с. 103-109.
12. Əliyev irsi: dövlət quruculuğunda tarixi və sosial yaddaşın rolu // – Bakı: Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq. Elmi məqalələr toplusu. – 2020, – s. 55-69.

Dissertasiyanın müdafiəsi “24” noyabr 2021-ci il tarixində saat 14:00 Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “22” oktyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.10.2021

Kağızın formatı: A5

Həcm: 39360

Tiraj: 100